# *Lu MEY:* "Çin Qlobal Cənub ölkələrinin, o cümlədən Azərbaycanın potensialı gücləndirmək, rəqəmsal və intellektual uçurumu aradan qaldırmaq səylərini dəstəkləməyə davam edəcək"

Çin həmişə süni intellekt sahəsində beynəlxalq idarəçiliyin və əməkdaşlığın gücləndirilməsi tərəfdarı olub ki, onun inkişafı bütün bəşəriyyətin xeyrinə olsun və "varlı ölkələr və varlı insanların oyunu"na çevrilməsinin qarşısını alsın.

AZƏRTAC xəbər verir ki, bu barədə iyunun 10-da birinci dəfə qeyd olunan Beynəlxalq Sivilizasiyalararası Dialoq Gününə həsr olunmuş, Bakıda keçirdiyi brifinqdə Çinin Azərbaycandakı səfiri Lu Mey bildirib.

Diplomat qeyd edib: "Hazırda süni intellekt kimi yeni texnologiyalar sürətlə inkişaf edərək yeni texnoloji və sənaye inqilabı dövrünün mühüm mühərrikinə çevrilir. Onlar istehsal və sosial sahələrdə bəşəriyyətə görünməmiş imkanlar yaradır, eyni zamanda qlobal idarəçiliyin mühüm mövzusuna çevrilərək bütün dünya hökumətlərinin diqqətini cəlb edir. 2023-cü ildə Çinin Sədri Si Cinpin insanların rifahını yaxşılaşdırmaq, iqtisadi və sosial inkişafı təşviq etmək və süni intellekt texnologiyalarından sui-istifadənin və yanlış tətbiqin qarşısını almaq üçün insan mərkəzli süni intellektin inkişafına sadiqliyi vurğulayan "Süni intellektin idarə olunması üzrə Qlobal Təşəbbüs" təklif etdi. Təşəbbüs süni



intellektin daim insanların nəzarətində olmasını təmin etmək üçün idarə oluna, izlənilə və etibar edilə bilən süni intellekt texnologiyalarının yaradılmasını, bu sahədə qanun və qaydaların davamlı olaraq təkmilləşdirilməsini tələb edir. O həmçinin süni intellektin qlobal idarəçiliyində inkişaf etməkdə olan ölkələrin təmsilçiliyinin və səsinin gücləndirilməsini, süni intellektin inkişafı və idarə edilməsində bütün ölkələr üçün bərabər hüquqlar, imkanlar və qaydaların təmin edilməsini, süni intellektin inkişafı, təhlükəsizliyi və idarə olunması ilə bağlı beynəlxalq məsələlərin əlaqələndirilməsinə fəal dəstək verilməsini, habelə BMT çərçivəsində effektiv, ədalətli və şəffaf fəaliyyət mexanizmi yaradılmasının tərəfdarıdır".

Potensialın artırılması sahəsində əməkdaşlığın qlobal süni intellekt idarəçiliyinin əsas istiqaməti olduğunu vurğulayan Lu Mey deyib: "Çin keçən ildən bəri BMT Baş Assambleyasının "Süni intellekt üçün potensialın gücləndirilməsi sahəsində beynəlxalq əməkdaşlığın gücləndirilməsi" adlı qətnaməsinin qəbulunu fəal şəkildə təşviq edir. Bununla yanaşı, Pekin "Qlobal süni intellekt potensialının artırılması planı"nı elan edib və bu sahədə beynəlxalq əməkdaşlıq üçün "Dostlar qrupu"nun yaradılması təklifini irəli sürüb. Xüsusilə qeyd olunur ki, Azərbaycan Çinin təklif etdiyi Baş Assambleya qətnaməsini fəal şəkildə dəstəkləyib və "Dostlar qrupu"na ilk qoşulan ölkələrdən olub. Pekin artıq Azərbaycan rəsmilərini süni intellekt sahəsində potensialın artırılması üzrə seminarlarda iştirak etmək üçün iki dəfə Çinə səfərə dəvət edib. Biz Qlobal Cənub ölkələrinin, o cümlədən Azərbaycanın potensialı gücləndirmək, rəqəmsal və intellektual uçurumu aradan qaldırmaq, siyasi təcrübə mübadiləsi, texniki dəstək, maliyyə yardımı, kadr hazırlığı və birgə tədqiqatlar vasitəsilə parlaq "rəqəmsal" və "intellektual" gələcəyə birgə irəliləmək səylərini dəstəkləməyə davam edəcəyik".

Azərbaycan. - 2025.- 11 iyun (№118).- S.6.